Azərbaycan Respublikası Hökuməti ilə Ümumdünya Əqli Mülkiyyətin Təşkilatı arasında 05 iyun 2018-ci il tarixində Bakı şəhərində imzalanmış Anlaşma Memorandumun məqsədlərində qeyd olunan Texnologiyalara və İnnovasiyalara Dəstək Mərkəzlərinin (bundan sonra - TİDM) yaradılmasına dair əməkdaşlıq çərçivəsində

**Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi**

**Ümumdünya Əqli Mülkiyyət Təşkilatı və Əqli Mülkiyyət Aqentliyi tərəfindən dəstəklənən "*Azərbaycanda Texnologiya və İnnovasiyaya Dəstək Mərkəzlərinin Yaradılması" üzrə* beynəlxalq layihədə iştirak etmək üçün**

**Respublika müsabiqəsi**

**E L A N   E D İ R**

**TİDM-lər** dövlət və özəl müəssisələrin, universitetlərin və elmi tədqiqat institutlarının patent fəaliyyətini aktivləşdirmək, hər cür patent axtarışlarının səmərəsini yüksəltmək və bununla patent ərizələrinin keyfiyyətini artırmaq, ümumiyyətlə, ixtiraçılara və tədqiqatçılara yüksək keyfiyyətli texnologiya informasiya xidmətləri və digər əlaqəli xidmətləri əldə etmək imkanlarını təmin etmək **məqsədilə yaradılır**.

Texnologiya və İnnovasiyaya Dəstək Mərkəzləri tərəfindən aşağıdakı xidmətlərin göstərilməsi nəzərdə tutulur:

- Onlayn patent bazalarına və elm və texnologiya resurslarına çıxış;
- Əqli mülkiyyətlə əlaqədar nəşrlərə çıxış;
- Texnologiyalara dair məlumatların axtarışında və alınmasında yardım;
- Verilənlər bazalarında axtarışın aparılması üzrə təlim;
- Tələb əsasında axtarış (yenilik, ixtiraçılıq səviyyəsi, ilkinliyin pozulması və s.);
- Texnologiyaların və rəqiblərin monitorinqi;
- Əqli mülkiyyət sahəsində qanunvericilik bazası haqqında əsas məlumatlar;
- Əqli mülkiyyətin idarə edilməsi və strategiyası haqqında əsas məlumat;
- Texnologiyaların kommersiyalaşdırılması və marketinqi ilə bağlı əsas məlumatlar.

Müsabiqədə iştirak etmək üçün universitetlər və elmi - tədqiqat institutlar ilə yanaşı, ixtiraçılıq fəaliyyətini dəstəkləyən dövlət və özəl müəssisələr də dəvət olunur.

Müsabiqədə iştirak etmək istəyən dövlət və özəl qurumlar, universitetlər və elmi-tədqiqat institutları Aqentliyin http://copat.gov.az/ saytında yerləşdirilmiş "Layihədə iştirak forması"nı doldurmalı və 20 dekabr 2019-cu il tarixinə kimi Aqentliyin ünvanına rəsmi məktubla təqdim etməlidirlər.

Müsabiqə qaliblərinin seçilməsi üçün əsas meyarlar:

- Əqli mülkiyyət ofisinin mövcudluğu;
- araşdırma layihələrinin sayı;
- yerli, regional və beynəlxalq patent müraciətlərinin sayı;
- universitetin dəstəyi ilə müəllimlər tərəfindən yaradılan innovasiya şirkətlərinin sayı;
- innovasiya sahəsində müqavilələr əsasında əməkdaşlıq;
- texnologiyaların və innovasiyaların inkişafı ilə bağlı dövlət proqramlarında qurumun iştirakı.

Müsabiqədə qalib gələn universitetlərdə, elmi-tədqiqat institutlarda yaradılan TİDM-nə Əqli Mülkiyyət Agentliyi tərəfindən aşağıdakı formalarda dəstək veriləcək:

- Agentliyin üzv olduğu beynəlxalq və regional təşkilatların informasiya resurslarına pulsuz giriş;
- Əqli mülkiyyət məsələləri üzrə konfransların, seminarların və digər tədbirlərin keçirilməsində yardım;
- TİDM işçilərinin ixtisasının artırılması üçün təlimlərdə, habelə distant təhsil proqramlarında iştirak;
- Zərurət yarandığı hallarda TİDM fəaliyyəti ilə bağlı yaranmış məsələlər üzrə əlavə treninqlər və ya məsləhətləşmələrin təşkili;
– Maddi-texniki dəstəyin göstərilməsi.

Müsabiqə ilə bağlı suallarla əlaqədar **(012) 449 62 81** nömrəli telefonla əlaqə saxlamaq olar.